*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 197-202* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.197*

# Əbülfəz Quliyevin elmi yaradıcılığında türk onomastikasına, antroponimlərə baxış

**Firudin Rzayev**
Filologiya üzrə fəlsəfə doktoru,dosent
E-mail: firudinrzayev@gmail.com

**Annotasiya.** Məqalədə Əbülfəz Quliyevin yeni nəşr olunmuş "Eski türkcede şahıs adları" monoqrafiyasından bəhs olunur. Əsərdə Ötükən və Turfan türklərinin antroponimik-şəxs adları 3 fəsil, 12 yarımbaşlıqda ətraflı tədqiq edilir. Kitabın fəsillərində əski Ötükən və Turfan türklərinin şəxs adları, xanədan adları, mifonim və teonimləri müqayisəli şəkildə təhlil edilir. Şəxs adlarında inanclardakı tanrı adlarının teonim-müqəddəs adlarda yeri mənbə və mifik məlumatlara istinadən araşdırılır.
Tədqiqat işində eyni zamanda Naxçıvan coğrafi arealında yer alan oronimik və hidronimik mənşəli teonimik adların izahları verilir. Linqvistik təhlillər zamanı bu mifoloji adları daşıyan oronim və hidronimlərin həm də prototürk tayfa adları olması və m.ö. VI-I minilliklərdə mövcudluğu elmi dəlillərlə sübut edilir. Tədqiqatda adların ilkin yaranma formaları qədim türk "Dədə Qorqud" dastanına istinadən izah olunur. Əsasən ilkin adlanmada An tanrısının adı, qurd mifinin yeri geniş araşdırılır. Türk xaqanlığına bağlı xaqan adlarına Aşina soyundan Aşina əlavə edilməsi İl Kağan titulu da geniş təhlil edilir. Tədqiqat əsərində yeni elmi nəticələr faktlarla sübut edilir.
**Açar sözlər*:*** onomastika, antroponim,titul, Ötükən, Turfan, inanc adları

**Məqalə tarixçəsi:** göndərilib – 07.05.2025; qəbul edilib – 22.05.2025

## A look at Turkısh onomastics and anthroponymic names in the scientific work of Abulfaz Guliyev

**Firudin Rzayev**
Doctor of Philosophy in Philology, Associate Professor
E-mail: firudinrzayev@gmail.com

**Abstract.** The article discusses the monograph "Personal Names in Old Turkic" in the work of Abulfaz Guliyev. The work extensively studies the anthroponymic-personal names of the Ötüken and Turhan Turks in 3 chapters and 12 subheadings. In the chapters of the book, the personal names of the old Ötüken Turks are analyzed in the heading of khanate, metonyms and theonyms, and the names of the old Turkic gods are analyzed in a comparative manner. The place of the names of gods in beliefs in personal names in theonym-sacred names is investigated with reference to source and mythical information.
In the work, ancient Turfan Uyghur personal-female and legal names are also investigated comparatively with ancient Turkic personal names with new scientific facts. During the research, explanations of theonymic names in oronymic and hydronymic names located in the geographical area of Nakhchivan are also given. During linguistic analyses, it is proven with scientific evidence that oronyms and hydronymics bearing these mythological names are also proto-Turkic tribal names and that they existed in the 6th-1st millennia BC. In the research, the initial formation forms of names are explained with reference to the ancient Turkic epic of Dede Gorgud. Mainly, the name of the god An and the place of the myth of the Wolf in the initial naming are extensively investigated. In the Turkic khaganate, names such as Ashina were added to the names of Khagan

from the Ashina surname, and names such as Il Kagan are also extensively analyzed. In the research work, new scientific results are proven with facts.
**Keywords:** personal names-anthroponyms, Ötüken, Turhan, religious names, Alp-Yigid.

**Article history:** received 07.05.2025; accepted − 22.05.2025

## Giriş / *Introduction*

Öz tarixi qədimliyi ilə seçilən, dünya sivilizasiyasında ayrıca yeri olan qədim türklər və onların antroponim-şəxs adları tarixi təkamüldə müxtəlif istiqamətlərdən yer almış adlardır. Biz ümumtürk antroponimik-şəxs adlarına diqqət etdikdə bu adlarda qədim türk Tanrı mifləri, müqəddəs sayılan heyvani inanclar, rütbə, titul əlamətləri, onlarda etnoslar-tayfa adları və digər əlamətlərin yer aldığını görürük. Bu istiqamətdə tədqiqatlara müqayisəli yanaşdıqda burada türklərin ibtidaidən aliyə doğru inkişafında, onların məskun olduğu ərazi və məkanlar, arxeoloji mədəniyyət nümunələri, hər bir tayfa inanclarının bu mədəniyyətlərlə bağlılığını və s. kimi amilləri vəhdətdə görürük. Əgər biz tarixi mənbələrə, tədqiqat əsərlərinə diqqət etsək, qədim türk ərazilərində mövcud olmuş tayfa birliklərinin öz dilləri fövqündə onomastik vahidləri yaratması, qədim tarixi dövrlərdən bu adlarda öz tayfa adını, mifi, tarixi, və coğrafiyasını əbədiləşdirməsi faktı ilə qarşılaşarıq.

Görkəmli tədqiqatçı alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Əbülfəz Quliyev Bakı Dövlət Universitetinin filologiya fakültəsinin dil-ədəbiyyat şöbəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra elmi tədqiqatlara maraq göstərmiş, nəticədə bu istiqamətdə xeyli elmi uğurlara yiyələnmişdir. 1979-cu ildə namizədlik, 2003-cü ildə doktorluq dissertasiyaları müdafiə etməklə bərabər, seçdiyi mövzular istiqamətində xeyli əsərləri dərc olunmuş Ə.Quliyev müəllifi olduğu "Əski türk yazılı abidələrinin müntəxabatı", "Orxon-Yenisey abidələrində feilin təsriflənməyən formaları", "Qədim türk onomastikasının leksik-semantik sistemi (2 cild), "Qədim uyğur türklərinin onomastikası", "Əski türk onomastik sözlüyü" və s. kitab və monoqrafiyalarda antroponimik və digər adları geniş araşdırmışdır. Azərbaycan milli humanitar elminin inkişafında xüsusi rolu olan Ə.Quliyev elmi ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilmişdir. Biz ilk olaraq müəllifin bəzi əsərlərində antroponimik adlara qısaca nəzər salıb son monoqrafiyasını geniş təhlil etmək istərdik.

## Əsas hissə / *Main Part*

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, görkəmli tədqiqatçı alim Ə. Quliyev özünün ilkin elmi yaradıcılığına aid kitablarında toponim, etnonimlərlə yanaşı, antroponimlərə-şəxs adlarının türk yazılı abidələrindən toplanması və izahı məsələlərinə toxunmuşdur. Onun "Əski türk onomastik sözlüyü" kitabında biz yazılı mənbələrdən dini baxımdan *Adamu burxan* budda adını, Maqda ölkəsi hökmdarı buddanın müasiri *Açataştru* adını, eləcə də *Abi, Abay kız, Aday, Baçağ xatun, Badu, Barça Toğmuş, Çab Şatun,Çağrı beg* kimi 300-dən artıq antroponim şəxs adlarını üzə cıxarması ilə qarşılaşırıq. Bu antroponimik-şəxs adları yüzə yaxın uyğurlara məxsus abidə mətnlərindən toplanmışdır [3, s. 6, 15-16, 28] ki, bu tədqiqat əsərləri gələcək tədqiqatçılar üçün elmi mənbə yerində xüsusi əhəmiyyət daşıyır.

Bununla bərabər, "Orxon-Yenisey abidələrində toponim və etnonimlər" əsərində də müəllif, Talas abidələrində *Kara yazmaz,* Bilgə xaqan abidəsində *Ataman tarkan,* Tonyukuk abidəsində *Tonra Eşim* kimi xeyli antroponimik-şəxs adlarını üzə çıxarmışdır [4, s. 10-11] ki, burada oronim, hidronim, etnonim kimi xeyli sayda adlara da toxunulmuş və yüzlərlə bu cür adlar mətnlərdən toplanaraq oxucu kütləsinə təqdim olunmuşdur. Müəllifin digər bir əsərinə də elmi yöndən nəzər salmaq istərdik. Onun

"Qədim türk onomastikası" kitabı da qədim yazı nümunələrindən toplanmış adlardır ki, Orxon -Yenisey abidələrindəki adlar içərisində biz *alp, apa, bilgə, beg* kimi xeyli titul, tarixi şəxsiyyət bildirən şəxs adları-antroponimlərə rast gəlirik. Müəllif burada *Bilgə kağan, İltiriş kağan, Kutluğ kağan* kimi xeyli şəxs adını yazılardan toplamaqla yanaşı, digər toponimik adları da yazılardan üzə çıxarmışdır. Bununla bərabər, Turfan uyğurları və Qaraxanlı türklərində totem-müqəddəs heyvan adlarının antroponimik-şəxs adlarında təkrarını da oxucuya çatdıran müəllif, *İt Arslan, Beg Arslan* kimi rütbə bildirən, qadınlara aid, *Kut xatun, Kutluğ kız* kimi şəxs adlarının da sistemli şəkildə geniş izahına toxunmuşdur [5, s. 7-9, 56-60] ki, bu da gələcək tədqiqatçılar üçün elmi mənbə yerindədir. Bütün bu araşdırmalar və türk yazılı abidələrindən ortaya çıxarılmış toponimik adlarla bağlı müəllifin elmi fikirləri onun əsl tədqiqatçılıq bacarığının nəticəsi olaraq özünü təqdim edir.

Tədqiqatçı alim "Qədim Uyğur türklərinin onomastikası" adlı əsərində də qədim yazı nümunələrində antroponimik adlara müqayisəli yanaşmaqla qədim Uyğur türklərinin tarixi, dili, məişətləri və s. haqqında da ətraflı məlumat verir. Burada Ötükən, Turfan uyğurlarının antroponimik-şəxs adları sistemi, hüquq sənədlərində toponimlər, "Kutadqu bilig" əsərində onomastika, kosmonimlər və s. geniş araşdırılmışdır [6, s. 14-20, 23-49, 104-130]. Yeri gəlmişkən qeyd edək ki, ümumən istənilən türklərə məxsus istər dil, mifoloji baxış, istər enogenez, tarix, istərsə də coğrafi adları özündə əks etdirən onomastik-xüsusi ad vahidləri əsl tarixi bir mənbə yerindədir [1, s.289]. Bu baxımdan, Ə.Quliyevin antroponimik vahidlərin daşıdıqları mənalara elmi yöndən yanaşması öz əsərlərinin xüsusi elmi əhəmiyyətli bir mənbə yerində olduğunu ortaya qoymuşdur ki, bu əsl tədqiqatçılıq bacarığı tələb edir.

Bura qədər olan əsərlərə diqqət etdikdə, qədim yazılardan istər antroponim-şəxs adlarını, istərsə də toponimik adları toplayıb ortaya qoymaq böyük zəhmət tələb edir. Müəllifin hər bir əsəri xüsusi elmi mənbə olmaqla yanaşı, bu istiqamətdəki tədqiqatçılar üçün də elmi baxımdan əhəmiyyətli vəsaitdir ki, onomastikaya dair tədqiqatlarda bu əsərlərə istinadlar və istifadələr vacib şərtlərdəndir.

Bildiyimiz kimi, onomastik vahidlər özünəməxsus, xüsusi məna çaları daşımaqla coğrafi işarə olsa da, hər hansı bir ərazidə ümumişlək və hakim olan dildəki leksik vahidlərdən bəhrələnməklə, adlandırma-nominasiya qanunları, model və quruluşlara istinadən formalaşmaqla sabit ada-nomenə çevrilir. İstənilən antroponimik ad da dilin fonetik, leksik, semantik, morfoloji, sintaktik xüsusiyyətlərinə tabedir və bu amillərin hər hansı birindən kənar deyil. İstənilən dilin keçdiyi tarixi təkamül yolu, əski adlandırma, sözyaratma və s. üsullarla zəngindir ki, bu amillər mövcud leksikona daxil olan söz köklərində də özünü təsdiq edir [10, s. 30]. Görkəmli alim Ə.Quliyevin elmi nəticələrində bu faktların öz əksini tapması və təkrarı müəllifin tədqiqatçılıq üslubunda yeni elmi konsepsiyaların meydana gəlməsinə də səbəb olmuşdur.

**Ə.Quliyevin "Eski türkcede şahıs adları" əsərində antroponimlər.**

Müəllifin son dövrlər 2025-ci ildə ortaya qoyduğu bu monoqrafiyası da şəxs adlarının yaranması, istifadə formaları, məna çalarlarının təhlili istiqamətində qiymətli bir elmi əsərdir. Kitab Giriş və 3 bölümdə oxucuya təqdim olunur ki, müəllif girişdə qədim türk yazılarının oxunmasında Danimarka alimi Vilhelm Tomsen, rus alimi V.Radlov, P.M.Melioranski, S.Klyaştornı, S. Malov və türk alimi Hüseyin Namık Orkun, Talat Tekin və b. Orxon-Yenisey abidələrində, Tonyukuk, Talas yazılarında *Beg çor, Oğul Tarkan*, *Tonyukuk* kimi antroponimlərə olan baxışlarını geniş təhlil etmişdir. Bununla bərabər, müəllif L.Qumilyov, T.Tekin, O.Sərtkayanın bu istiqamətdəki onomastik tədqiqatlarına da müqayisəli yanaşmışdır [7, s. 1-9].

Əsərin I bölümünün 1-ci "**Əski türk şəxs adlarının təməl özəllikləri"** başlığında Ə.Quliyev türk onomastikasının özəlliklərindən bəhs etməklə Ötükən türklərinə məxsus olan əski türk antroponim-şəxs adlarının ilkin yaranma formalarını elmi baxımdan geniş təhlil edir. Müəllif Orxon yazılarında da hökmdar sülalələrində *İl Kağan***,** Göktürk sülalərinə mənsub olmayan *Tudun Yamtar*, *Makrac tamğaçı*, *İsiyi Liken, Kunı Sengin* adlarında "er at" kimi sözlərin antroponimlərdə yerini geniş şərh edir. Əsərə diqqət etdikdə Ə.Quliyev adların yaranmasının ilkin formalarının 2-ci *Xanədan adları*

başlığında Qaraxanlı türklərinin adlanma formasında *Arslan han, Boğra han, Alp kutluğ bilgə kağan, Eletmiş bilge kağan* kimi adları nümunə olaraq göstərir. Bunula bərabər, *Qurd mifi,* Türk xaqanlığında *Xaqan* adlarına Aşina soyundan Aşina əlavə edildiyi, eyni zamanda, Əski türk antroponim-şəxs adlarının təməl özəllikləri, yəni ilkin yaranma formalarına "Dədə Qorqud" dastanımızdan da nümunə verməklə ilk adlanma formasından bəhs edən müəllif *buğa öldürənə Buğac adı* verilməsini də nümunə kimi göstərir. Biz bu dastanda Şamançılıqla bağlı Qambörə adında həm *Qam-Şaman*, həm də *Börə, Böri-Qurd* mifinin daşındığını görürük [7, s. 10-18; 2, s.52-54].

*Alınma antroponimlər* adlı başlıqda Çin, Tibet, Soğd xalqları ilə əlaqədə olan türklərin şəxs adlarında *Çaça sengün, İşiyi Liken, Lisun tay sengün* kimi xeyli şəxs adlarını nümunə göstərən müəllif antroponimlərin yazılı abidələrdəki yerinə də toxunmaqla, bu adlanmanın tüklərin həmin xalqlarla mədəni əlaqəsi ilə bağlı olduğunu göstərir. Bu bölümün 3-cü *Ötükən türklərinin ünvanları(titulları)* adlı başlıqda *Alp* sözünün hərbi,əskəri məna daşıdığına 20-dən artıq nümunə göstərməklə bərabər,onların Kül Tigin yazılarında, *Apa, Ayğuçı, Bağa, Bəg, Bilgə* kimi 41 qədim türk sözlərindən yaranmış yüzdən yuxarı antroponimin mövcud olduğu yazılı mənbələri araşdırır [7, s. 19-38]. Bütün bunlar müəllifin ağır zəhməti və elmi bacarığını ortaya qoyan amillərdir.

Ə.Quliyev "*Tarixi şəxsiyyət bildirən antroponimlər*" adlı I bölümün 4-cü bəndinə də Alp külüg Bilgə kağan, Altun tay Sengün, Baz kağan, İltiriş kağan, Kül Tigin və s. bu kimi sonda Yolığ Tegini göstərməklə 22 antroponimik adın hansı mənbələrdən gəldiyi geniş təhlil edilmiş, adlarla bağlı müqayisəli təhlillər aparılmışdır. Əsərin 5-ci "*Ötükən türk antroponimlərinin leksik- semantik qrupları*" bölümündə isə Orxon- Yenisey yazılarında antroponimik adların *qəhrəmanlıq, igidlik və güclə* bağlı adlar olmasına diqqət çəkmiş, onların etimoloji-leksik mənalarına aydınlıq gətirmişdir. Burada *Alp* sözünün Göytürk abidələrində, "Dədə Qorqud" dastanı, Yenisey, Uybat yazılarında *Alp urunqu, Alp ərən, Ərən uluğ, Ərdəm bəy, Bögü kağan, Bəy Apa, Küc ögə, Kül tegin, Kül bilgə Kağan, Kara kan* kimi yüzlərlə adı nümunə kimi göstərilir. Həmçinin müqəddəs sayılan heyvan adları *Toğrul, Toğan*-quş, eləcə də *Tonqa*-bəbir adının *Tonqa Tegin, Alp ər Tonqa*, *Tonqra sem,* işıq ifadə edən *Altun tarkan, Altun tay sangun, Altun tamğan* kimi antroponimlərdə mövcudluğuna aid xeyli antroponimləri nümunə olaraq verir. Burada hər bir adın daşıdığı mənalar da elmi faktlarla sübut edilmişdir. Müəllif 6 və 7-ci bəndlərdə isə Ötükən antroponimlərindən bəhs edərək, ayrı-ayrı illərdə bu adların mənbələrinə toxunmaqla adların etimoloji izahlarını açıqlamışdır. Bu bölümdə mifonim və teonimlərdən də bəhs edilməklə bərabər, müəllif *Erlik kan, Yol Tenqri* kimi müqəddəs varlıq adlarında da antroponimik adların izahının geniş təhlilini vermiş, Orxon -Yenisey, Uyğur yazıları, Tuva kitabəsi kimi mənbələrdən nümunələr göstərmişdir. Bu başlıqlarda qədim yazılardan *Kara bars, Kara kan, Ağbaş atık, Yaş Ağbaş* kimi 17 antroponim nümunələri, *sənət və məslək, var dövlət, qohumluq, el, tayfa adı* və s. bu kimi mənalar bidirən sözlər geniş təhlil edilmişdir. Bunun üçün qədim yazı nümunələrini geniş araşdıran müəllif göstərilən mənaları bildirən *Yaruk ınal, Özünçü Kırğı, Makraç tamğaçı, İşbara tamğan çor, Öz bilgə çansı, Öz toğdu, Yigen irkin, Yegen Kara, El toğan, Uru bəy, Az tutuk* kimi xeyli nümunələrin də mənalarını açıqlamaqla adların türk leksik vahidlərdən formalaşdığına mənbələr göstərmişdir. Bununla bərabər, bu bölümdə Ötükən uyğurlarında *Bilgə kağan, Uyğur kağan, Bilgə tarkan* kimi adlara müəlliflərin elmi yanaşma fərqləri, mifonim və teonimlərlə bağlı *Umay Tanrı, Yol Tanrı, Erklig kan, Tinsi oğlu, Bürt* ölüm mələyi, *Tanrıxan* və s. adlara digər müəlliflərin də elmi yanaşması geniş təhlil edilmişdir [7, s. 40-61, 70-88, 101-117].

Əgər bu adlanma üsuluna digər xalqlarla müqayisəli yanaşsaq, dünya xalqlarının mifinə dair ensiklopedik əsərlərdə antroponimik adlara biz rast gəlmirik, bu yalnız türklərə aid antroponimik adlarda özünü göstərir. Buna baxmayaraq, rus siyasəti ilə türk mifik inanclarımızın xeyli hissəsi sovetlər dövrü ensiklopedik əsərlərdə *xristian etnik qruplarının mifologiyasına və xristian tarixinə aid edilmişdir* [8, s. 39, 55, 63, 76, 90, 98, 101-105; 9, s. 87-88, 122, 203, 223].

Biz bu kitabın II bölümündə müəllifin Turfan uyğurlarının antroponimlərindən bəhs etməklə Totemik-heyvan, məqsədli, təsadüfi, teofer-adları mənbələr əsasında izah etdiyini görürük ki, qədim yazılardan bunu üzə çıxarmaq da xeyli zəhmət tələb edir. Bu bölümün 1-ci *"Turfan uyğurlarında ad və ünvan*" bəndində rütbə, titul əsasında yaranmış adlara aydınlıq gətirilir. *Çor,Tarkan,Tigin, ınal, Beg, Tutun,Tutuk, Sanqun, Toyın* kimi 9 başlıqda bu rütbə və titullarla bağlı şəxs adları geniş, müqayisəli şəkildə təhlil olunmuş, qədim uyğurlarda *arslan, bars, buğa, laçın* kimi, heyvan adlarının şəxs adlarında yeri, daşıdığı mənaların milli adətlə, məişətlə bağlılığı və antroponimlərin törəmə formaları geniş izah olunmuşdur. Bu bölümün "Turfan uyğurlarında kadın adları və ünvanları" başlığı altında 7 formada adlanmaya xeyli mənbələr əsasında *Kutluk Tenqri, Sumak Tenqri,* il komponenti ilə bağlı *İl bars, İl temir, Balak tenqrim, Bacağ xatun*, etnotoponimlərdən ibarət *Kırkız tenqrim* kimi yüzə yaxın nümunələr göstərilir. Bununla bərabər Uyğur, Ötükən, Doğu Türküstan türklərində antroponimlər, eləcə də Çin, Sanskrit, Ərəb şəxs adlarından istifadələr və s. dillərdən xeyli nümunələr verilir ki, istənilən türk şəxs adlarının müqayisəsində bu əsər əsl mənbə yerində xüsusi elmi əhəmiyyətə malikdir. Bununla bərabər kitabda *etnoantroponimlər*-tayfa adlı şəxs adları, *topoantroponimlər*-coğrafi şəxs adları ,tərkibində *totemik*-müqəddəs heyvan adları olan şəxs adları, eləcə də Atsız, İt tarkan kimi *qoruyucu* adlar geniş təhlil olunur. Bunun davamı olaraq əsərdə Göytürk və Uyğur türk antroponimlərindən xeyli şəxs adları geniş müqayisəli araşdırılır və ümumilikdə 14 başlıqda tərkibində *el, il, sənətkarlıq, dini termin, rəng, say, daş, qaya, səma cisimləri* və s. adlar bildirən şəxs adları da mənbələr əsasında geniş izah olunur [7, s. 119-125, 129-155].

Kitabın "*Karaxanlı türklərinin şəxs adları"*adlı III bölümündə də xeyli antroponimik ad genişliyi ilə müqayisəli şəkildə təhlil olunur. Əsərdə "M. Kaşğari *"Divani-lüğət-it-Türk" abidəsinin antroponimləri"* bölümündə şəxs adları xeyli müəlliflərin əsərləri və mənbələr əsasında ayrı-ayrı hissələrə bölünməklə, yüzə yaxın antroponimik adlar nümunə kimi verilir və etimoloji baxımdan izah olunur. Bununla bərabər, yazıdakı adlar leksik-semantik fərqlərinə görə qruplara bölünərək antroponimlər, etnoantroponimlər, tərkibində rəng, igidlik, xasiyyət formaları olan *Qara xan, Qədir xan, Bilgə bəy* kimi xeyli adlar nümunə kimi verilməklə hər birinin Orxon-Yenisey, Uyğur və s. yazılardakı yeri geniş təhlil olunur. Burada "Kutadqu-bilig"in antroponimləri, eləcə də qədim mənbələrdən götürülmüş xeyli sayda şeir parçaları əsasında geniş izah olunmaqla mənaları mənbələrə istinadən elmi yöndən təhlil edilmişdir [7, s. 158-171, 180-209] ki, bu da müəllifin fikirlərinin elmi yöndən təsdiqinin sübutlarıdır.

## Nəticə / *Conclusion*

Bütün bunları ümumiləşdirib, yekun olaraq sonda nəticə kimi qeyd edə bilərik ki, əsərdə xeyli sayda qədim türk yazılı abidələrindən üzə çıxarılmış antroponimik adlar və onların formalaşma yollarının tədqiqi elmi baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu, gələcəkdə tədqiqatçıların eyni istiqamətdə aparacağı elmi tədqiqatlar üçün əsl araşdırma metodu olmaqla qiymətli mənbə yerindədir. Əsərdə xeyli türk tayfa dillərinə münasibət, onların ümumtürk dillərinin formalaşması tarixi təkamülünü özündə əks etdirməsi bir daha türk xalqları dillərinin tədqiqi metodikasına gərəkli elmi töhfədir. Bu tədqiqat metodları amorf-kök dillər və flektiv dillər quruluşunun aqlütinativ-türk dilləri ilə müqayisədə yeni tarixi dil faktlarını da ortaya çıxara bilər ki, bu da hansı dillərin ilk qədim dil olduğunu sübut edə bilər.

## Ədəbiyyat / *References*

1. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. – Bakı: Bakı Universiteti nəşriyyatı. 1991, 312 s.
2. Kitabi-Dədə Qorqut, – Bakı: Yazıçı, 1988, 265 s.
3. Quliyev Ə.A. Əski türk onomastik sözlüyü. – Bakı: Elm, 1999, 124 s.
4. Quliyev Ə.A. Orxon Yenisey abidələrində toponim və etnonimlər. – Bakı: Nurlan, 2004, 128 s.
5. Quliyev Ə.A. Qədim türk onomastikası. – Bakı: ADPU nəşri, 2007, 184 s.
6. Quliyev Ə.A. Qədim Uyğu türklərinin onomastikası. – Bakı: AzAtaM nəşriyyatı, 2014, 208 s.
7. Quliyev Ə.A. Eski türkçede şahıs adları. – Ankara:Sonçağ yayın evi, 2025, 230 s.
8. Мифы народов мира. Энциклопедия. Т. I, – Москва: Советская энциклопедия. 1987, 671 с.
9. Мифы народов мира. Энциклопедия. Т. II, – Москва: Советская энциклопедия.1988, 719 с.
10. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən (m.ö. VI-III minilliklər). – Bakı: ADPU nəşriyyatı, 2013, 528 s..

## Взгляд на турецкую ономастику и антропонимические имена в научных трудах Абульфаза Гулиева

**Фирудин Рзаев**
Доктор философии по филологии, доцент
E-mail: firudin rzayev@gmail.com

**Резюме.** В статье обсуждается недавно опубликованная монография Абульфаза Гулиева “Личные имена в древнетюркском языке”. В работе в 3 главах и 12 подзаголовках подробно изучаются антропонимические и личные имена тюрков-отюкенов и турханов. В главах книги дается сравнительный анализ личных имен древних тюрков-отюкенов, включая названия родов, а также имен древнетюркских богов под рубрикой метонимов и теонимов. С опорой на источниковую и мифическую информацию исследовано место имен богов в верованиях, в личных именах, в теонимических-сак-ральных именах.

В работе также рассматриваются древние турфанские уйгурские личные, женские и юридические имена в сравнении с древнетюркскими личными именами с использованием новых научных фактов. В ходе исследования также даны пояснения теонимических названий в оронимических и гид-ро-нимических названиях, расположенных в географической зоне Нахчывана. Лингвистический анализ показал, что оронимы и гидронимы, носящие эти мифологические названия, также являются про-то-тюркскими племенными названиями и использовались в I тысячелетии до н. э. Его существование в VI-I тысячелетиях доказано научными доказательствами. В исследовании объясняются первоначальные формы образования имен со ссылкой на древнетюркский эпос “Деде Горгуд”. Имя бога Ана и место мифа о Волке подробно исследованы в первоначальном именовании. В Тюркском каганате также широко анализируются такие имена, как Иль Каган, где к именам каганов от фамилии Ашина прибавлялось Ашина. Новые научные открытия подтверждены фактами в исследовательской работе.
**Ключевые слова**: личные имена-антропонимы, Отюкен, Турхан, религиозные имена, Алп-игид.